Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 148
(4372) CÜMƏ, 7 İYUL 2006-cı il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan.news.az

Qiyməti 20 qəpik (1000 AZM)

# Moskvada dini liderlərin zirvə görüşü başa çatmışdır

Moskvada dini liderlərin ilk dünya zirvə görüşü başa çatmışdır. Görüşdə dünyanın 49 ölkəsinin dini icmalarının başçıları, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə iştirak edirdilər. Müxtəlif konfessiyaların liderləri üç gün ərzində ümumbəşəri dini problemlərin birgə müzakirəsi üçün nadir imkana malik olmuşlar. Çıxışlarda deyildiyi kimi, dünyanın dini liderlərinin ünsiyyətində yüksək həmrəylik səviyyəsi müşahidə olunmuşdur ki, bunun da bütövlükdə dünya xalqları üçün böyük əhəmiyyəti vardır.

"Dini liderlərin dünya zirvə görüşünün müraciəti" üçgünlük müzakirələrin yekunu olmuşdur. Dövlət və dini icma başçılarına və bütün xoşməramlı insanlara ünvanlanmış müraciətdə deyilir ki, sivilizasiyalar arasında dialoq və tərəfdaşlıq sadəcə şüar xarakteri daşımamalıdır. Sənəddə bildirilir: "Biz elə bir dünya nizamı qurmalıyıq ki, demokratiyanı müxtəlif maraqların razılşadırılması, insanların milli və qlobal səviyyəli qərarların qəbulunda iştirakı üsulu kimi onların mənəvi hisslərinə, həyat tərzlərinə, müxtəlif hüquqi və siyasi sistemlərə, insanların milli və dini ənənələrinə hörmətlə uyğunlaşdıra bilsin. Sənəddə beynəlxalq münasibətlərdə ikili standartlar rədd edilərək belə bir əminlik ifadə edilir ki, dünya cansız və sadə ideoloji sxemlərə uyğunlaşdırılmayıb çoxqütblü və çoxsistemli olmalıdır. Müraciətdə terrorizmin və ekstremizmin hər cür təzahürü, habelə onlara dini baxımdan bəraət qazandırılması cəhdləri pislənilir, dini hisslərin və müqəddəs yerlərin təhqir olunmasını dayandırmaq tələbi səslənir.

Zirvə görüşü başa çatdıqdan sonra ənənəvi dini konfessiyaların nümayəndələri - Smolensk və Kalininqrad Mitropoliti Kirillin, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam A.Paşazadənin, İranın dini lideri M.Təhsirinin, Rusiya müsəlmanlarının müftisi R.Qaynutdinin, habelə digər konfessiyaların nümayəndələrinin iştirakı ilə mətbuat konfransı olmuşdur. Belə mötəbər forumun təşəbbüskarlarından biri olan A.Paşazadə görülən işin yekunlarından məmnun qaldığını bildirmişdir. O demişdir ki, belə görüşlər tez-tez keçirilsəydi, bir çox problemlər olmazdı. Şeyxülislam bütün ölkələrin dini liderlərinin zirvə görüşünün keçirilməsinə verdiyi töhfəyə görə Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksiyə dərin minnətdarlığını bildirmişdir. A.Paşazadə ümidvar olduğunu söyləmişdir ki, belə zirvə görüşlərinin keçirilməsi xoş ənənəyə çevriləcək və bütün dini icmaların nümayəndələri vaxtı çatmış problemləri müzakirə etmək üçün bir masa arxasında əyləşəcəklər.

***Asya HACIZADƏ,***
***AzərTAc-ın xüsusi müxbiri***

*Moskva*